Azərbaycan Respublikasının
Biznes Mühiti və Beynəlxalq
Reytinqlər üzrə Komissiyası

# MEDİADA İŞIQLANDIRILMIŞ MATERİALLARIN HƏFTƏLİK MONİTORINQİ

**• 12 – 18 avqust 2024-cü il •**

**"Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi" İşçi qrupu məlumatı**

**12.08.2024**

**report.az**

**"Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi" İşçi Qrupu sahibkarlarla görüşüb**



Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi" İşçi Qrupunun İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin dəstəyi ilə sahibkarlıq subyektləri ilə görüşü keçirilib. "Report" xəbər verir ki, bu barədə Ədliyyə Nazirliyi məlumat yayıb.

Görüş çərçivəsində İşçi Qrupun rəhbəri, nazirliyin Strateji planlaşdırma və monitorinq baş idarəsinin rəisi Toğrul Hüseynov, İşçi Qrupun digər üzvləri sahibkarların qarşılaşdıqları çətinliklər, İşçi Qrupun fəaliyyətində görmək istədikləri islahatlar və yeniliklər dinlənilib, onları maraqlandıran sualları cavablandırıb və müvafiq sahədə qanunvericiliyin müddəaları onların diqqətinə çatdırıb.

Görüşdə həmçinin Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Mübahisələrin həlli" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi" çərçivəsində İşçi Qrup tərəfindən görülmüş işlər barədə sahibkarlara məlumat verilib.

Qeyd olunub ki, "Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi" İşçi Qrupunun əsas məqsədi öz fəaliyyət istiqamətlərinə uyğun olaraq biznesin təşviqinə şərait yaradan

"Mübahisələrin həlli" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 31.05.2024-cü il tarixində təsdiq olunub.

bütün aspektlərin inkişaf etdirilməsi, maneələrin aradan qaldırılması, mübahisələrin həlli mexanizmlərinin təkmilləşdirilməsi və onların əlçatanlığının təmin edilməsidir. Bu məqsədlə mübahisələrin həlli, məhkəmələrin və digər orqanların qərarlarının operativ icrası və effektivliyinin təmin edilməsi istiqamətində İşçi Qrup tərəfindən mühüm islahatlar aparılır.

Görüşdə bildirilib ki, icra hərəkətlərinin həyata keçirilməsində nağdsız hesablaşmaların tətbiqi, borclunun elektron pul təşkilatlarında olan vəsaitlərinə tutmanın yönəldilməsi, icra sənədlərinin icrasından yayınan hüquqi şəxslərin rəhbərlərinin ölkədən getmək hüququnun məhdudlaşdırılması, habelə onların axtarışının təşkili ilə bağlı və digər layihələr hazırlanaraq aidiyyəti üzrə təqdim edilib. Bununla yanaşı icra sisteminin maksimum rəqəmsallaşdırılması, bir sıra icra hərəkətlərinin tam avtomatlaşdırılması və icra sənədlərinin icrasında operativliyin təmin edilməsi məqsədilə “Elektron icra” informasiya sisteminin təkmilləşdirilməsi istiqamətində işlərin aparıldığı bildirilib.

Həmçinin vurğulanıb ki, ədliyyə orqanları tərəfindən göstərilən elektron xidmətlərin sayı artırılaraq “İcra məmuruna elektron müraciət” xidməti istifadəyə verilib. Yeni xidmətdən istifadə etmək üçün nazirliyin rəsmi internet səhifəsində “Dövlət xidmətləri” bölməsindən “İcra xidmətləri” hissəsinə keçid etməklə vətəndaşlar FİN və doğum tarixi əsasında sorğu edərək özlərinin tərəf olduqları icra işləri barədə məlumatları əldə edə, seçdikləri işlə bağlı icra məmuruna müraciət edə, habelə zəruri sənədləri həmin müraciətə əlavə edə bilərlər.

Eyni zamanda qeyd olunub ki, “Vahid məhkəmə portalı”nın yeni versiyası formalaşdırılaraq istifadəyə verilib. Burada həmçinin geniş auditoriyanın məhkəmə statistikası sahəsində məlumatlara əlçatanlığının təmin edilməsi məqsədi ilə “Məhkəmə statistikası” bölməsi yenilənərək yeni statistik göstəricilər əlavə edilib.

Görüşdə həmçinin mübahisələrin alternativ həlli mexanizimlərindən olan mediasiya sisteminin elektronlaşdırılması üzrə də işlərin yekunlaşma mərhələsində olduğu, e-mediasiya portalının hazırlandığı və onun çox az ölkə istisna olmaqla analoji modelinin mövcud olmadığı qeyd olunaraq, portalın yaxın vaxtlarda ictimaiyyətə təqdim olunacağı səsləndirilib.

Bundan başqa mübahisələrin alternativ həlli yollarından olan arbitraj institutunun Azərbaycanda inkişaf etdirilməsi yönündə islahatların aparıldığı, bu institutun elektronlaşması üzrə işlərə başlanıldığı da qeyd edilib.

“Mübahisələrin həlli” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 31.05.2024-cü il tarixində təsdiq olunub.

Qeyd edək ki, Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın "Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi" İşçi Qrupuna rəhbərliyi Ədliyyə Nazirliyi həyata keçirir.

**Mənbə:**

https://report.az/biznes-xeberleri/mubahiselerin-helli-mehkeme-sistemi-ve-huququn-aliliyi-isci-qrupu-sahibkarlarla-gorusub/

**Digər saytlar və portallar**

1. https://azertag.az/xeber/edliyye_nazirliyinde_sahibkarliq_subyektleri_ile_gorus-3134322
2. https://azertag.az/xeber/mubahiselerin_helli_mehkeme_sistemi_ve_huququn_aliliyi_ischi_qrupunun_sahibkarliq_subyektleri_ile_gorusu_kechirilib-3135818
3. https://ikisahil.az/post/536451
4. https://sia.az/az/news/politics/1179145.html
5. https://azadmedia.az/gundem/101903-.html
6. https://oxu.az/digar/edliyye-nazirliyinde-sahibkarliq-subyektleri-ile-gorus-kecirilib
7. https://qafqazinfo.az/news/detail/444263
8. https://www.gununsesi.info/edliyy%c9%99-nazirliyind%c9%99-sahibkarliq-subyektl%c9%99ri-il%c9%99-gorusu-kecirilib/
9. https://moderator.az/az/dunya/796927
10. https://fed.az/az/diger/mubahiselerin-helli-mehkeme-sistemi-ve-huququn-aliliyi-isci-qrupunun-sahibkarlarla-gorusu-kecirilib-207265
11. https://www.azerbaycan24.com/mubahiselerin-helli-mehkeme-sistemi-ve-huququn-aliliyi-isci-qrupu-sahibkarlarla-gorusub/
12. https://apa.az/sosial/mubahiselerin-helli-mehkeme-sistemi-ve-huququn-aliliyi-isci-qrupunun-sahibkarlarla-gorusu-kecirilib-859884

"Mübahisələrin həlli" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 31.05.2024-cü il tarixində təsdiq olunub.

**“Biznesin müflisləşməsi” işçi qrupunun fəaliyyəti**

**12.08.2024**

report.az

**“Sağlamlaşdırma və müflisləşmə haqqında” yeni qanun layihəsi müzakirə edilib**




Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Biznesin müflisləşməsi” işçi qrupunun fəaliyyəti çərçivəsində “Sağlamlaşdırma və müflisləşmə haqqında” yeni qanun layihəsinin hazırlanması üzrə tematik qrupunun hibrid formatda növbəti iclası keçirilib. "Report" xəbər verir ki, bu barədə işçi qrupuna rəhbərlik edən Ədliyyə Nazirliyi məlumat yayıb.

Məlumata görə, iclasda qurumla yanaşı İqtisadiyyat Nazirliyi, həmin nazirlik yanında Dövlət Vergi Xidməti, Azərbaycan Mərkəzi Bankı, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin nümayəndələri iştirak edib.

Tematik qrupun rəhbəri, Ədliyyə Nazirliyinin Qanunvericilik Baş idarəsinin rəis müavini Səkinə Əliyeva iclası açıq elan edərək, biznesin müflisləşməsi sahəsində beynəlxalq ekspertin cəlb edilməsi ilə hazırlanmış yeni “Sağlamlaşdırma və müflisləşmə haqqında” qanun layihəsinin yekunlaşdırılması məsələsinin müzakirə ediləcəyini qrup üzvlərinin diqqətinə çatdırıb.

Müzakirə zamanı yeni qanun layihəsinin çox geniş və beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmış əhatəli sənəd olduğu vurğulanıb.

”Biznesin müflisləşməsi” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 14.05.2024-cü il tarixində təsdiq olunub.

Sözügedən normativ-hüquqi aktın qanunvericilik tələblərinə və milli hüquq ənənələrinə uyğunlaşdırılması üçün Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsi tərəfindən hər bir maddəyə baxılmasının vacibliyi bildirilib.

Sonda tematik qrupun növbəti iclasda Ədliyyə Naziriliyinin Qanunvericilik baş idarəsinin qanun layihəsinə müvafiq düzəlişlər etdikdən sonra sənədə baxması və "Dünya Bankı Qrupunun "Business Ready" layihəsinin "Biznesin müflisləşməsi" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə" Yol Xəritəsində qeyd olunmuş digər məsələlərin müzakirəsinin həyata keçirilməsi barədə qərar verilib.

”Biznesin müflisləşməsi” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 14.05.2024-cü il tarixində təsdiq olunub.

**Mənbə:**

https://report.az/biznes-xeberleri/saglamlasdirma-ve-muflislesme-haqqinda-yeni-qanun-layihesi-muzakire-edilib/

**Digər saytlar və portallar**

1. https://azertag.az/xeber/saglamlasdirma_ve_muflislesme_haqqinda_yeni_qanun_layihesinin_hazirlanmasi_uzre_tematik_qrupunun_novbeti_iclasi_kechirilib-3133990
2. https://sia.az/az/news/politics/1179024.html
3. https://azadmedia.az/gundem/101875-.html
4. https://ikisahil.az/post/536394
5. https://fed.az/az/diger/saglamlasdirma-ve-muflislesme-haqqinda-yeni-qanun-layihesi-muzakire-edilib-207239
6. https://gundem.az/az/gundem/102924/
7. https://sfera.az/dunya/262555/
8. https://www.azerbaycan24.com/saglamlasdirma-ve-muflislesme-haqqinda-yeni-qanun-layihesi-muzakire-edilib/
9. https://apa.az/sosial/biznes-muhiti-ve-beynelxalq-reytinqler-uzre-komissiyanin-tematik-qrupunun-iclasi-kecirilib-859809

**KOBİA yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupunun iclası**

**13.08.2024**

**oxu.az**

**KOBİA yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupunun ilk iclası keçirilib**

Müvafiq dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupunun ilk iclası keçirilib. Oxu.Az xəbər verir ki, bu barədə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) məlumat yayıb.

Bildirilir ki, Koordinasiya Qrupunun sədri, iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev ölkədə sahibkarlığın inkişafı, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması və bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi tədbirləri barədə məlumat verib. Qeyd olunub ki, qarşıdakı ortamüddətli dövr üçün hədəflərə nail olunmasında fəaliyyətdə olan bizneslərin 99%-dən çox hissəsini təşkil edən KOB subyektləri əhəmiyyətli rol oynayır. KOB sektorunun dayanıqlığının artırılması, məhsuldarlığın yüksəldilməsi, KOB-ların böyüməsinin dəstəklənməsi, qarşılaşdıqları maneələrin operativ həlli, hüquqi və tənzimləyici çərçivələrin yeni reallıqlara uyğun təkmilləşdirilməsi, rəqəmsallaşmanın və "yaşıl" yanaşmaların tətbiqinin sürətləndirilməsi, yüksək əlavə dəyər yaradan sahələrdə KOB subyektlərinin sayının artırılması başlıca hədəflər sırasındadır. Bu hədəflərə nail olunmasında, o cümlədən KOB-ların inkişafının daha geniş dəstəklənməsi, aktual məsələlərin çevik həlli üçün aidiyyəti dövlət qurumlarının birgə fəaliyyəti vacibdir. Koordinasiya Qrupu bu baxımdan əlverişli platforma olacaqdır.

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov Koordinasiya Qrupunun fəaliyyətinin təşkili ilə bağlı məlumat verib. Bildirilib ki, KOB-lara dəstək məqsədilə KOBİA fəaliyyətini ikitərəfli və çoxtərəfli layihə və təşəbbüslər, sahəvi görüşlər və ictimai müzakirə platformaları vasitəsilə maraqlı tərəflərin sektordakı proseslərə yaxından cəlb edilməsi üzərində qurub. Koordinasiya Qrupunun yaradılması ilə əlaqələndirmə və iştirakçılıq məsələləri məzmun və keyfiyyət baxımından yeni, daha strateji mərhələyə keçib. Qarşıdakı dövrdə Qrupun fəaliyyətinin daha çevik təşkili məqsədilə xüsusi məsələlər üzrə bir neçə qurumun nümayəndələrinin iştirakı ilə operativ müzakirə platformalarının və ya tematik işçi qruplarının

Nazirlər Kabinetinin 2024-cü il 13 yanvar tarixli Qərarı ilə isə KOBİA yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupu yaradılıb. Koordinasiya Qrupu KOB-ların inkişafı sahəsində fəaliyyətin əlaqələndirilməsi, KOB evlərində Koordinasiya Qrupunda təmsil olun dövlət orqanları ilə KOBİA arasında səmərəli əlaqələndirmənin və operativliyin təmin edilməsi məqsədilə agentlik yanında yaradılmış dövlət orqanlarının nümayəndələrindən ibarət ictimai əsaslarla daimi fəaliyyət göstərən kollegial orqandır. Koordinasiya Qrupunda 30-a yaxın dövlət qurumunun nümayəndəsi təmsil olunur.

yaradılması hədəflənir. KOB sektorunun inkişafına yönəldilmiş fəaliyyətin ölkəmizdə biznes mühitinin daha da təkmilləşməsinə, eləcə də beynəlxalq reytinqlər üzrə mövqeyinin güclənməsinə əlavə dəstək verə biləcəyi nəzərə alınaraq, Koordinasiya Qrupunda müzakirə ediləcək məsələlər və təşəbbüslər **Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyasına** da təqdim ediləcək.

İclasda biznesin maliyyə yükünə dair mövcud vəziyyət və hədəflərə, KOB evlərində G2B xidmətlərin səmərəli təşkilinə, yeni yaradılacaq KOB evləri üzrə dövlət qurumları ilə fəaliyyətin koordinasiyasına dair təqdimatlar keçirilib, müzakirələr aparılıb və dövlət qurumlarının təklifləri dinlənilib.

Koordinasiya Qrupunun üzvləri, həmçinin, "Bakı KOB evi"ndə sahibkarlara G2B və B2B xidmətlərin göstərilməsi üçün yaradılmış şəraitlə də tanış olublar.

Qeyd edək ki, mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində fəaliyyətin əlaqələndirilməsi məqsədilə Koordinasiya Qrupunun yaradılması 2 dekabr 2022-ci il tarixli "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Qanunla təsbit edilib. Nazirlər Kabinetinin 2024-cü il 13 yanvar tarixli Qərarı ilə isə KOBİA yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupu yaradılıb və əsasnaməsi təsdiq olunub.

**Mənbə:**

https://oxu.az/iqtisadiyyat/kobia-yaninda-daimi-fealiyyet-gosteren-koordinasiya-qrupunun-ilk-iclasi-kecirilib

**Digər saytlar və portallar**

1. https://sia.az/az/news/economy/1179561.html
2. https://marja.az/118625/example
3. https://banco.az/az/news/kobia-yaninda-daimi-fealiyyet-gosteren-koordinasiya-qrupunun-ilk-iclasi-kecirilib
4. https://veteninfo.az/107730-2
5. https://olaylar.az/news/iqtisadiyyat/568006
6. https://news.day.az/world/1681765.html
7. https://news.milli.az/economy/1225111.html

”Biznesin müflisləşməsi” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 14.05.2024-cü il tarixində təsdiq olunub.

**“Əmlakın qeydiyyatı və icarəsi” işçi qrupunun fəaliyyəti**

**15.08.2024**

report.az

**“Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı”nın yaradılması ilə bağlı layihələr müzakirə edilib**

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətində “Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı” informasiya sisteminin yaradılması haqqında ölkə Prezidentinin 17 noyabr 2023-cü il tarixli fərmanının daha effektiv icrası ilə bağlı təkliflərin müzakirəsinə həsr olunmuş iclas keçirilib. "Report" bu barədə Dövlət Xidmətinə istinadən xəbər verir.

Məlumata görə, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Əmlakın qeydiyyatı və icarəsi” işçi qrupunun üzvlərinin, Dövlət Xidmətinin və Ədliyyə Nazirliyinin nümayəndələrinin iştirak etdiyi iclasda fərmanda əks olunan məsələlər və bu kontekstdə qarşıda duran qısamüddətli və uzunmüddətli strateji hədəflər müəyyən edilib. Həmçinin, adıçəkilən fərmanın icrası ilə bağlı müvafiq normativ hüquqi aktlara edilməsi nəzərdə tutulan zəruri dəyişikliklər diqqətə çatdırılıb və bu mövzuda fikir mübadiləsi aparılıb. İclasın yekununda fərmanın vaxtında, keyfiyyətli, mahiyyəti üzrə tam icrasını təmin edəcək növbəti tədbirlər müəyyən olunub.

**Mənbə:**

https://report.az/infrastruktur/dasinmaz-emlakin-elektron-reyestri-ve-kadastri-nin-yaradilmasi-ile-bagli-layiheler-muzakire-edilib/

**Digər saytlar və portallar**

1. https://ikisahil.az/post/537104
2. https://naxcivanxeberleri.com/bloq/dasinmaz-emlakin-elektron-reyestri-ve-kadastrinin-yaradilmasi-ile-bagli-layiheler-muzakire-edilib-50428
3. https://bbn.az/dasinmaz-emlakin-elektron-reyestri-v%c9%99-kadastrinin-yaradilmasi-il%c9%99-bagli-layih%c9%99l%c9%99r-muzakir%c9%99-edilib/

“Biznesin yerləşdiyi yer (əmlakın qeydiyyatı və icarəsi)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 27.05.2024-cü il tarixində təsdiq olunub.

## “Biznesə daxilolma” İşçi qrupunun iclası

**16.08.2024**

**vergiler.az**

### “Biznesə daxilolma” İşçi qrupunun iclası keçirilib




Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəhbərlik etdiyi “Biznesə daxilolma” İşçi qrupunun videokonfrans formatında iclası keçirilib. Görüşdə Dövlət Vergi Xidməti ilə yanaşı, Xarici İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və ölkənin aparıcı konsaltinq şirkətlərinin nümayəndələri iştirak ediblər.

İşçi qrupunun rəhbəri, Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva 2024-cü ilin ötən dövründə həyata keçirilmiş işlər və layihələr, habelə iclasın gündəliyində olan əsas məsələlər barədə məlumat verib. Qeyd olunub ki, biznesin qeydiyyatının sadələşdirilməsi məqsədilə “Biznesə daxilolma” işçi qrupunun təşəbbüsü və müvafiq qurumların birgə səyi ilə “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda, Əmək, Mülki və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə qanun layihələri hazırlanaraq qəbul olunub, dövlət başçısı tərəfindən 8 iyul 2024-cü il tarixdə təsdiqlənib. Bununla da kommersiya qurumlarının dövlət qeydiyyatı sahəsində qüvvədə olan qanunvericiliyin beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi, xarici və yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron dövlət qeydiyyatı prosedurlarının eyniləşdirilməsi prosesinə başlanılıb.

Sonra İşçi qrupunun üzvü, Dövlət Vergi Xidmətinin Vergi ödəyicilərinin qeydiyyatı və uçotu baş idarəsinin rəis müavini Hüsniyyə Abdullayeva “Biznesə daxilolma” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata

“Biznesə daxilolma” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 05.04.2024-cü il tarixində təsdiq olunub.

keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi" çərçivəsində görülmüş işlər barədə məlumat verib. Qeyd olunub ki, kommersiya hüquqi şəxslərin təsisçiləri və onların nizamnamə kapitalındakı payları üzrə dəyişikliklərlə əlaqədar notariat hərəkətləri aparıldıqdan sonra müvafiq məlumatların, eləcə də kommersiya hüquqi şəxslərin rəhbərləri ilə əmək müqavilələrinin bağlanması və xitam verilməsi üzrə müvafiq məlumatların onlayn qaydada əldə edilərək qeydiyyata alınması ilə bağlı qanunvericilik layihələri hazırlanaraq aidiyyəti üzrə təqdim olunub, müvafiq rəylər alınıb və hazırda baxılmaqdadır. Eyni zamanda, kommersiya qurumlarının benefisiar mülkiyyətçiləri barədə məlumatların dövlət qeydiyyatına alınması və həmin məlumatların reyestrinin aparılması ilə bağlı işlər həyata keçirilir, müvafiq normativ sənəd qüvvəyə mindikdən sonra texniki imkanlar yaradılacaq.

Bundan başqa, Beynəlxalq Xüsusi Hüquq üzrə Haaqa Konfransının təşviq etdiyi Elektron Apostil Proqramına uyğun olaraq elektron apostil verilmiş xarici mənşəli sənədləri müvafiq proqram vasitəsilə yoxlamaqla onların tərcüməsinin informasiya sistemi üzərindən notarius tərəfindən distant rəsmiləşdirilməsi və ünvana çatdırılması xidmətinin tətbiqi üzərində iş aparılır. İşçi qrupun üzvü, Ədliyyə Nazirliyinin Notariat, qeydiyyat və reyestr baş idarəsinin Nəzarət-analitik iş üzrə qrupunun rəhbəri Leyla Barxudarzadə bu sahədə görülən işlər barədə məlumat verib. Qeyd olunub ki, Ədliyyə Nazirliyi tərəfindən Azərbaycan və ingilis dillərində müvafiq portalın (https://translate.justice.gov.az/) yaradılması təmin edilib. Portalda xarici mənşəli sənədlərin tərcüməsinin elektron qaydada notarius tərəfindən rəsmiləşdirilməsi üçün müvafiq addımları nəzərdə tutan funksional imkanlar yaradılıb.

İclas iştirakçıları Xarici İşlər Nazirliyinin (XİN) Konsulluq İdarəsi və Azərbaycan Respublikasının konsulluqları tərəfindən rəsmi sənədlərin leqallaşdırılması məqsədilə XİN-in "Konsul leqallaşdırılması" informasiya sisteminin yaradılması, leqallaşdırılmış sənədlərin tərcüməsinin "Elektron notariat" informasiya sistemi üzərindən notarius tərəfindən distant rəsmiləşdirilməsi və ünvana çatdırılması xidmətinin təşkili üzrə görülmüş işləri müzakirə ediblər. XİN-in Konsulluq idarəsinin Vətəndaşlıq məsələləri şöbəsinin müdiri, işçi qrupun üzvü Ruhlan Nəbiyev bu sahədə həyata keçirilən işlər barədə ətraflı məlumat verib.

İşçi qrupun rəhbəri, Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva layihələrin yekunlaşdırılması, Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin icrasının sürətləndirilməsi üçün zəruri olan işlər üzrə səylərin artırılması və işçi qrupda təmsil

"Biznesə daxilo0lma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 05.04.2024-cü il tarixində təsdiq olunub.

olunan nümayəndələrin birgə effektiv fəaliyyətinə əlavə dəstəyin verilməsi ilə bağlı məsələləri diqqətə çatdırıb.

İclas iştirakçıları həyata keçirilən işlərin və tətbiq olunması nəzərdə tutulan yeniliklərin ölkəmizdə biznesin qeydiyyatı sahəsinin daha da yaxşılaşmasına gətirəcəyini bir daha vurğulayıblar.

**Mənbə:**

https://vergiler.az/news/taxes/31385.html

**Digər saytlar və portallar**

1. https://www.azerbaijan-news.az/az/posts/detail/olkede-biznesle-mesgul-olmaq-proseduru-daha-da-sadelesecek-1723932253
2. https://azia.az/iqtisadiyyat/50721-biznese-daxilolma-isci-qrupunun-iclasi-kecirilib.html
3. https://www.baki-xeber.com/15712-biznese-daxilolma-Isci-qrupunun-iclasi-kecirilib.html
4. https://rockvell.com/?p=27141
5. https://livepress.media/olk%C9%99d%C9%99-biznesl%C9%99-m%C9%99sgul-olmaq-proseduru-daha-da-sad%C9%99l%C9%99s%C9%99c%C9%99k/
6. https://fhnews.az/news/details/ldquobiznesa-daxilolmardquo-isccedili-qrupunun-iclasi-keccedilirilib-a4d140
7. https://innews.media/az/news/id-34801

"Biznesə daxilo0lma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 05.04.2024-cü il tarixində təsdiq olunub.